„13 (938) 27 mart 2019-cu il

# EŞQ HEKAYƏSİ



İlqar FƏHMİ

Gənc yazıçı Rəşad Mahmudoğlu artıq neçə ildir ki, müxtəlif səpkili yazılarla ədəbi mətbuatda çıxış edir və bu müddət ərzində, demək olar ki, bütün ədəbi orqanlarda əsərləri işıq üzü görüb. «Yanlış ünvan» povesti onun ilk nəşr nümunəsidir. Əsərin mövzusu həmişə gənclər arasında çox populyar olan eşq hekayətindən bəhs edir.

Lakin burada adət etdiyimiz aşiqanə romantik hekayəni görmürük. Rəşad öz eşq hekayətini məhz müasir dövrun problemləri, psixoloji gərginlikləri fonunda təqdim edir. Burada adət etdiyimiz kimi, iki aşiq və bunların arasında maneə olan qüvvələr yoxdur. Bu eşq hekayəsində maneə ümumilikdə aşiqlərin özündə, ziddiyyətli hiss və duyğularındadır. Adətən həqiqi və səmimi eşqdən danışarkən qələm sahibləri bu hissi ülvi, saf, təmiz kimi göstərməyə çalışır. Lakin Rəşad bu yanaşmanı təkrar etməyib.

Onun danışdığı hekayətin içində aşiqlərin tamam fərqli simasını görürük. Bu sima bəzən anlaşılmaz, bəzən ziddiyyətli, bəzən də qüsurludur. Lakin bütün bu ziddiyyətləri yazıçı havadan götürməyib. Məhz bu günün reallığı belədir. İndiki dövrdə, əfsuslar olsun ki, gənclər saf, səmimi eşqdən bir qədər uzaq düşüblər, bu hisslərə ehtiras, tamah, riyakarlıq və ən əsas da yalan qarışır. Bəzən yalanlar və riyakarlıqlar sevgi adlandırılan hisslərlə çiyin-çiyinə addımlayır, onu müşayiət edir. Və yazıçının oxuculara göndərdiyi mesaj bundan ibarətdir ki, əgər sevginin




yanında riyakarlıq və yalan varsa, son nəticədə bu, sevgini tamamilə dağıdıb məhv edə bilər...

Əlbəttə ki, əsərin bütün məzmununu danışmaq istəmirəm ki, oxucular üçün marağı itməsin. Bir də əsərin içindəki bəzi çatışmazlıqları da qeyd etmək istərdim ki, gənc yazıçı bundan sonra da öz üzərində çalışsın. Ən əsas iki vacib məsələni qeyd etmək istərdim.

Birincisi: xarakterləri daha dəqiq işləməyə ehtiyac var. İnsanların hərəkətlərinin motivasiyası tam açıqlığına qədər hiss olunmur.

İkincisi isə süjet xəttindəki dramaturji inkişaf. Bu məsələ üzərində də Rəşad bir qədər çox işləsə, inanıram ki, daha yaxşı olar, çünki konfliktlərin ardıcıllığı bəzən pozulur, bəzən isə, ümumiyyətlə, konflikt itir, sadəcə həyat hadisələrinin təsviri gedir.

Ümumilikdə isə əsərə gənc yazıçının debütü kimi yaxşı qiymət vermək olar.

Mən əminəm ki, Rəşad yuxarıda qeyd etdiyim müəyyən iradları nəzərə alacaq və gələcək əsərlərində bunları aradan qaldırmağa çalışacaq.

Ona ədəbiyyatın çətin yollarında uğurlar arzulayıram...